*Dostumuz Əli Rza Xələflinin hamımıza doğma olan "Kredo" qəzetinin 1000-ci sayı çapa hazırlanır qarşıdakı həftə. Ona görə bu həftəni dostlar arasında "Əli Rza - "Kredo" həftəsi elan etmək istəyirik. Əlbəttə ki, karantini nəzərə alaraq hələlik yazılarla. Onun buna haqqı var! Qəzeti təpədən-dırnağa azərbaycançılıq dəyərlərinə kökləndiyinə görə bir təbrik yazısı mən yazdım. Siz də baxın, dostlar!*

**Müəllifdən.**

"Kredo"nun 1000-ci sayı... İllər insafsızcasına nə qədər sürətlə keçir. Amma tarix yarada-yarada. Hər keçən günü, dəqiqəni, anı dünyamızda və ağ vərəqlər üzərində möhürləyə-möhürləyə. Möhürləyənlər – arxivlərə, saxlanc- xəzinələrimizə yaddaş yazanlar sırasında KREDO da var. Daha doğrusu,"Kredo"nun da öz yeri var. Nə böyük xoşbəxtlik!

..."Kredo"nun ilk sayının çap olunduğu 1999-cu ilin oktyabr ayından bizləri o qədər də böyük zaman məsafəsi ayırmır. Əlbəttə ki, yalnız vaxt ölçüləri baxımından. Bizləri 1999-cu ildən həm də böyük bir zaman məsafəsi ayırır. "Elə bil dünən idi" yanaşması nə qədər aktual olsa da, arada təqvimini dəyişmiş bir yüzillik, bir minillik faktoru da var. Bu illər həm də yalnız rəqəmlərin dəyişməsi ilə deyil, eyni zamanda təfəkkürlərin yenilənməsi, yeni-yeni ideyaların doğulması, tamamilə fərqli və tamamilə çağdaş texnologiyaların meydan sulaması ilə müşayiət olunub. "Kredo" bu intəhasız yeniliklərin heç birinin qabağından qaçmayıb. Bəlkə də onları yenə-yenə üzərinə götürdüyü missiyanı uğurla davam etdirib.

...KREDO həm də ƏLİ RZA XƏLƏFLİ deməkdi. Onu hələlik 1000-ci sayına qovuşduran ƏLİ RZA XƏLƏFLİ. Qəzetçiliyin "oxucu biganəliyi"ndən adlayan zəmanəmizdə qəzet çıxarmağın nə demək olduğunu, hansı çətinliklərdən keçdiyini bilməmiş deyilsiniz, əziz oxucular! Üstəlik yersiz şouçuluğun at oynatdığı bir dövrdə sanballı sözün, xalqımızın ədəbi, milli-mənəvi dəyərlərinin keşiyində dayanmağın hansı məhrumiyyətlərdən keçdiyini də bilməmiş deyilsiniz! Əli Rza müəllim bu məhrumiyyətləri öz şəxsində yaşada-yaşada "Kredo"nun işığını sönməyə qoymayıb bu çətin illər ərzində. Dostlarımız onun barəsində "bir adam – bir qəzet", "sinədəftər redaktor" və s. ifadələri elə yanğıyla söyləyiblər ki, bəlkə bununla onun əzablarının bir qismininsədə üstünə soyuq su səpə bilsinlər. Amma bu yanaşmaların heç biri dostumuz Əli Rza Xələflinin gözlərimiz qarşısında yaradıb-yaşatdıqlarını tam ehtiva edə bilməyib. Ustad şair-publisist, jurnalist Əli Rza müəlllim hər

# Dəyərlərimizi qoruduğunuz üçün çox dəyərlisiniz!

həftənin ilk günlərini yalnız "Kredo"suna köklənir (hətta qəzetin çapdan çıxma ehtimalı sıfra bərabər olsa da belə. Təbii ki, burada maliyyə sıxıntılarını da unutmaq olmaz...). Həftənin sonu – qəzet çap olunandan sonrakı zamansa...ürəyini müəyyən qədər də olsa boşaltmış ustad yazarla söhbətləşməyin əsl məqamı gəlir. Biz dostlar Əli Rza müəllimin o "işgəncə" çəkən həftə əvvəli halını da nəzərə alırıq, imkan düşdükcə həftəsonu fürsəti də əldən vermirik.

Əli Rza Xələfli – "Kredo" tandemi yaşam zamanı ilə paralel olaraq Qarabağ konfliktinin çözülməsi yolunda aparılan ideoloji mübarizələrin cığırdaşına çevrilib. 21 il ərzində bu qəzetin səhifələrində fasiləsiz Qarabağ döyüşü – Qarabağ həqiqətlərinin ölkə ictimaiyyətinə və dünyaya çatdırılması prosesi uğurla aparılıb. Müəllif və qəzet bu gün də həmin mübarizənin ön sıralarında yolunu davam etdirir. Demək olar ki, "Kredo"nun əksər saylarında Qarabağdakı maddi-mədəniyyət abidələrinin Azərbaycan xalqına məxsusluğu faktların dili ilə geniş oxucu kütləsinə çatdırılıb. Əslən soy-kökü də Qarabağın Cəbrayıl bölgəsinin Xələfli kəndindən olan dostumuz bu daş kitabələrin xalqımıza məxsusluğunu həm yerli sakin, həm azərbaycanlı ziyalı kimi bütün təfərrüatları ilə ortaya qoyub, həm də tarixçi və etnoqraflara müvafiq şəraiti yaratmaqla onların təkzibedilməz arqumentlərini ictimailəşdirib.

...1000-ci sayına, 21-ci yaşına gəlib çatmış "Kredo"nun səhifələrində kimlərə, hansı imzalara səxavətlə yer ayırmayıb Əli Rza Xələfli?! Onun istedadlı hər bir cümlədən, hər bir fikirdən nə qədər sevindiyinin şahidi olmuşam. Elə bu səbəbdən onun barəsində "Çağdaş ədəbiyyat cəfakeşi" adlı publisist qeydlərimlə ölkə mediasında çıxış etməyi özümə borc bilmişəm. Çox sevincliyəm ki, onun qiymətləndirib çap etdiyi imzaların sırasında arabir mən də yer almışam.

1000-ci say, 21-ci yaş! Elin dili ilə desək "bir igidin ömrü"... Əli Rza Xələfli başda olmaqla bütün kollektivi təbrik edirəm! Dəyərlərimizi qoruduğunuz üçün bizdən ötrü çox dəyərlisiniz, əziz dostlar! 2000-ci saya doğru uğurlar!



*Nəzirməmməd*
*ZÖHRABLI,*
*jurnalist-publisist*

Kredo 2020.- 18 iyun.- S.4.